AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 3 (1505), 25 - 31 yanvar 2022-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Milli Olimpiya Komitəsi Pekin-2022 Qış Olimpiya Oyunlarına həsr olunan rəsmi təqdimat mərasimi təşkil edib

Yanvarın 18-də Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) Pekin-2022 Qış Olimpiya Oyunlarına həsr olunan rəsmi təqdimat mərasimi təşkil edib. Tədbirdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katib Azər Əliyev, Çinin Azərbaycandakı səfiri xanım Qo Min, Olimpiya çempionları və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

MOK-un vitse-prezidenti Ç.Hüseynzadə çıxışında bildirib ki, Azərbaycan Pekin-2022-də fərdi fiqurlu konkisürmə idman növündə iki idmançı ilə təmsil olunacaq. Dördilliyin zirvə yarışında idmançılarımızdan Yekaterina Ryabova və Vladimir Litvintsev mübarizə aparacaqlar. Pxençan-2018 Qış Olimpiya Oyunlarında ölkəmiz cəmi bir idmançı ilə dağ xizəyi yarışında təmsil olunmuşdu. Fevralın 4-20-də keçiriləcək Qış Olimpiya Oyunlarında Azərbaycan nümayəndə heyəti 10 nəfərdən artıq olacaq.

Ç.Hüseynzadə Pekin-2022 Qış Olimpiya Oyunlarında Azərbaycan komandasının bayraqdarının adını da açıqlayıb. O, bayraqdarın Vladimir Litvintsev olacağını bildirib. MOK rəsmisi həm təşkilatçılara, həm də iştirakçılara uğurlar və təhlükəsiz yarış arzulayıb.

Sonra Estoniyada keçirilən Avropa çempionatında iştirak etdikləri üçün bu tədbirə qatıla bilməyən Yekaterina Ryabova və Vladimir Litvintsevin videomüraciətləri nümayiş olunub.

Çinin Azərbaycandakı səfiri xanım Qo Min mərasimin yüksək səviyyədə təşkilinə görə MOK rəhbərliyinə təşəkkür edib. "Azərbaycan Cənubi Qafqazın idman ölkəsidir", - deyən xanım səfir bunun Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi diqqəti və dəstəyi sayəsində mümkün olduğunu qeyd edib. Diplomat bildirib: "Məhz Prezident İlham Əliyevin sayəsində Azərbaycanda idman sürətlə inkişaf edir və atletləriniz beynəlxalq arenalarda yüksək nailiyyətlər qazanırlar".

"Çin dünyaya möhtəşəm, eksklüziv və qeyri-adi Olimpiya Oyunları bəxş etməyi beynəlxalq ictimaiyyət qarşısında özünə borc bilir", - deyən Q.Min "Birlikdə birgə gələcək naminə" şüarı altında keçiriləcək Qış Olimpiya Oyunlarında idmançılara və iştirakçılara uğurlar arzulayıb.

MOK-un Pekin-2022 Qış Olimpiya Oyunlarına həsr olunan təqdimat mərasimi Azərbaycan milli komandasının rəsmi formasının nümayişi ilə başa çatıb. Milli-mənəvi dəyərlərimizin rəmzlərini əks etdirən geyim dəstində qış fəslinin ruhu və rəngləri təcəssüm olunub. Geyimləri tanınmış aparıcılar Afaq Gəncəli və Tural Əsədov təqdim ediblər.

## Olimpizm



### Pekin-2022: Olimpiya kəndi fəaliyyətə başladı

Çinin paytaxtı Pekində Olimpiya kəndi iştirakçıları qəbul etməyə başlayıb. İlk iş günündə buraya Çin, Avstraliya, Kanada, ABŞ və digər ölkələrdən 20-dən çox nümayəndə heyətinin üzvləri gəlib. Olimpiya Kəndinin rəsmi açılışı isə yanvarın 27-də baş tutacaq.

### ABŞ öz idmançılarına Pekinə telefon aparmamağı tövsiyə edir

ABŞ Olimpiya Komitəsi amerikalı idmançılara haker hücumu təhlükəsi səbəbindən Pekin Olimpiadasına gedəcəkləri zaman özləri ilə smartfonlarını aparmamağı tövsiyə edib. Bu barədə "The Wall Street Journal" məlumat yayıb.

Qeyd olunub ki, mobil telefonlar Çində oyunların bütün qonaqları tərəfindən quraşdırılmalı olan "My2022" proqramından istifadə etməklə sındırıla bilər. Böyük Britaniya, Kanada və Norveç də öz idmançılarına eyni xəbərdarlığı edib.

Qeyd edək ki, Pekin Olimpiadası fevralın 4-dən 20-dək keçiriləcək.

### Voleybol millilərimiz reytinq cədvəlində irəliləyib

Səh. 6

### XXIV Qış Olimpiya Oyunlarına 10 gün qalır




### 1 saylı İOEUGİŞM ötən ili uğurla başa vurub

Səh. 6

## Anons




### "Soyuq olimpiada" həyəcanı ilə döyünən isti ürəklər

Səh. 4

### Naqanodan Pekinə gedən yol

Səh. 5

### Ölkəmizdə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş turnirlər keçirilib

Səh. 6

### Sumoçu qadın

Səh. 7

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*

**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*



# Gimnastika Federasiyasının ümumi yığıncağı olub



Milli Gimnastika Arenasında Azərbaycan Gimnastika Federasiyasının (AGF) 12-ci ümumi yığıncağı keçirilib. Hesabat xarakteri daşıyan tədbirdə federasiyanın İcra Komitəsinin üzvləri, təsisçi qurumların və federasiya üzvlərinin nümayəndələri iştirak ediblər.

İclasda federasiyanın baş katibinin 2021-ci ildə gimnastika idman növlərində əldə olunan nailiyyətlər, gimnastlarımızın Tokio-2020 Yay Olimpiya Oyunlarında iştirakı, paytaxtımızda keçirilən beynəlxalq yarışlar və AGF-in beynəlxalq arenadakı uğurlarından bəhs edən hesabat məruzəsi dinlənilib.

Sonra AGF-in ötən il üzrə maliyyə hesabatı təqdim edilib.

Hesabatların təsdiqindən sonra federasiyanın fəaliyyəti ilə əlaqədar yığıncağın gündəliyində duran digər məsələlərə baxılıb.

# *Çingiz Hüseynzadə yenidən Azərbaycan Atletika Federasiyasının prezidenti seçilib*



Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə növbəti müddətə Azərbaycan Atletika Federasiyasının prezidenti seçilib. Seçkilər zamanı federasiyanın İcraiyyə Komitəsinin yeni tərkibi də müəyyənləşib. Belə ki, Firat Hüseynov federasiyanın vitse-prezidenti, Məhərrəm Sultanzadə isə baş katibi vəzifəsinə seçiliblər.

Yeni seçilmiş heyət 2024-cü ilin sonunadək vəzifələrini icra edəcək.

## Olimpiya mükafatçımız Parisdə gümüş medala sahib çıxdı



Azərbaycanın qadın karateçisi İrina Zaretska "Paris Open-2022" turnirində gümüş medala sahib çıxıb. 68 kq çəki dərəcəsində mübarizə aparan idmançımız mübarizəyə 1/8 finaldan başlayıb. Əvvəlcə yerli karateçi Çayme Zaudjala qalib gələn ikiqat dünya və Avropa çempionumuz növbəti mərhələdə kosovolu Festina Kurrini məğlub edib. Tokio Olimpiadasının gümüş mükafatçısı yarımfinalda Fransanın digər təmsilçisi Taliya Sombedən üstün olub. 26 yaşlı idmançımız bu nəticə ilə adını finala yazdırıb. Həlledici görüşdə karateçimizin rəqibi fransalı Alizye Ajye olub. Finalda rəqibinə 2:4 hesabı ilə uduzan İrina Zaretska Parisdə gümüş medala sahib çıxıb.

## Ruslan Lunyovdan növbəti uğur



Xorvatiyanın Osijek şəhərində keçirilən ISSF Qran-Pri yarışında Azərbaycan atıcısı Ruslan Lunyov uğurla çıxış edib. İdmançımız 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçma yarışında gümüş medal qazanıb.

Xatırladaq ki, bu medal R.Lunyovun ardıcıl qazandığı ikinci medaldır. Belə ki, atıcımız yanvarın 15-də Sloveniyanın Ruşe şəhərində keçirilən ISSF Qran-Pri yarışında qızıl medal qazanmışdı.

# Atletika üzrə Bakı çempionatı və birinciliyi keçirilib



Respublika Olimpiya Mərkəzində atletika üzrə Bakı çempionatı və birinciliyi keçirilib. Yarışda atletlər 60, 200, 400, 800, 1500 və 3000 metr məsafələrə qaçış, 4x200 metr məsafədə estafet qaçışı, uzunluğa, hündürlüyə və üçtəkanla tullanma, eləcə də nüvəitələmə yarışlarında qüvvələrini sınayıblar.

Çempionatın açılış mərasimində çıxış edən Azərbaycan Atletika Federasiyasının vitse-prezidenti Firat Hüseynov Prezident İlham Əliyevin idmanın inkişafına göstərdiyi yüksək diqqət və qayğı nəticəsində ölkəmizin dünyada idman dövləti kimi tanındığını diqqətə çatdırıb. O, Azərbaycanda idmanın digər növləri kimi, atletikanın da sürətlə inkişaf etdiyini bildirib, bu baxımdan belə turnirlərin əhəmiyyətini vurğulayıb.

Paytaxt çempionatında atletlərin göstərdikləri nəticələrin gələcəkdə onların beynəlxalq yarışlarda iştirakına imkan yaradacağını deyən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov idmançılara uğurlar arzulayıb.

Gənclər və idman nazirinin müavini Mariana Vasileva Azərbaycanda idmanın sürətli inkişafına dövlətin diqqət və qayğısından danışıb, çoxsaylı yerli və beynəlxalq turnirlərin təşkil olunduğunu bildirib. O, ölkəmizdə atletikanın kütləviliyinin artırılması baxımından çempionatın önəmini vurğulayıb.

Ümumilikdə 150 idmançının mübarizə apardığı çempionat iki gün davam edib. Çempionatda 8 komanda mübarizə aparıb.

Yarışın qalibləri diplom və medallarla təltif olunublar.

## Federasiya prezidenti yığma komandaların baş məşqçiləri ilə görüşdü

Yanvarın 22-də Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Mədət Quliyev Respublika Velotrekində müxtəlif növlər - şose, trek, dağ velosipedi və BMX üzrə yığma komandaların baş məşqçiləri ilə görüşüb. Görüşdə qurumun rəhbəri və baş məşqçilər velosiped idmanında yüksək nailiyyətlərin əldə olunması yollarını müzakirə ediblər.

* * *

Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) İcraiyyə Komitəsinin üzvü Vüqar Salahov, federasiyanın baş katibi Elnarə Musayeva və idman direktoru Oleq Berezovskinin iştirakı ilə məşqçilərlə görüş keçirilib. Görüş zamanı federasiya prezidenti Mədət Quliyevin velosiped idmanının inkişafı və kütləviliyin artırılması ilə bağlı məşqçilərin qarşısına qoyduğu məsələlər müzakirə edilib.

Görüşdə həmçinin konkret hədəflər müəyyənləşdirilib.

## *Paytaxtımız yenidən dünya kuboku yarışına ev sahibliyi edəcək*

Dünya Güləş Birliyinin (UWW) İcraiyyə Komitəsinin onlayn iclası keçirilib. UWW-nin Büro üzvü, federasiyanın vitse-prezidenti Namiq Əliyevin də iştirak etdiyi vebinarda bir sıra yarışlarla bağlı önəmli qərarlar verilib. Daha öncə təqvimdə ilin ilk reytinq turniri kimi nəzərdə tutulmuş "Matteo Pellikone" yarışı İtaliyada "omikron" virusunun geniş yayılması üzündən təxirə salınıb. Belə ki, İtaliya hökumətinin məlum səbəbdən tətbiq etdiyi sərt məhdudiyyətlər UWW-ni bu addımı atmağa vadar edib. Romadakı yarış iyunun 22-25-də keçiriləcək. Belə olan halda ilk reytinq yarışı fevralın 24-dən 27-dək İstanbulda təşkil edilən ənənəvi xatirə turniri olacaq. İkinci reytinq yarışı Qazaxıstanda (2-5 iyun), mövsümün son reytinq turniri isə Tunisdə (14-17) baş tutacaq.

UWW-nin prezidenti Nenad Laloviç məsələ ilə bağlı bunları deyib: "İnanırıq ki, bu dəyişikliklər hər il keçirilən reytinq yarışlarına fayda verəcək. Bu turnirlərdə güləşçilərə xallar veriləcək. İlin sonunda toplanan xallara əsasən ən yaxşı güləşçilər müəyyənləşəcək".

Tədbirdə ilin sonunda keçiriləcək dünya kuboku yarışının məkanları da müəyyənləşib. Sərbəst və qadın güləşi üzrə dünya kuboku yarışı 2022-2023-cü illərdə İovada (ABŞ) təşkil olunacaq. Yunan-Roma güləşi üzrə dünya kuboku isə ölkəmizə həvalə olunub. Bu il noyabrın 5-6-da keçiriləcək yarışa Bakı ev sahibliyi edəcək. Əvvəlki illərdən fərqli olaraq bu dəfə turnirdə 8 yox, 6 komandanın iştirakı nəzərdə tutulub. Belə ki, ötən il Norveçdə keçirilən dünya çempionatında komanda hesabında ilk beşlikdə yer alan Rusiya, İran, Azərbaycan, Gürcüstan və Türkiyə ilə yanaşı, dünya yığması (All Star) kubok uğrunda mübarizə aparacaq. Yunan-Roma güləşi üzrə dünya kuboku yarışı 5 illik fasilədən sonra keçiriləcək. Klassik güləş üzrə millimiz 1 dəfə kuboku başı üzərinə qaldırıb. Komandamız 2015-də də Tehranda kubokun sahibi olub.



Qeyd edək ki, daha sonra ölkəmizdə iki dəfə (2004-cü, 2012-ci) sərbəst güləş üzrə dünya kuboku yarışı keçirilib.

# AFFA qitə futbol qurumuna müraciət edib

***AFFA Ermənistan Futbol Federasiyasının UEFA-dan gələn həmrəylik ödənişlərindən separatçıların klubu olan "Lernain Artsax"a vəsait ayırması ilə bağlı qitə futbol qurumuna müraciət edib.***

Bu barədə assosiasiyanın Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Firuz Abdulla məlumat verib.

Onun sözlərinə görə, həmin pulu separatçılara UEFA vermir: "Qurum vəsaiti Ermənistan Futbol Federasiyasına ayırıb. Məbləği isə klublar arasında İcraiyyə Komitəsi bölüşdürüb. Biz də UEFA-ya bildirmişik ki, sizin ayırdığınız vəsait bu istiqamətə yönləndirilib".

Qeyd edək ki, Ermənistan Futbol Federasiyasının İcraiyyə Komitəsi UEFA-dan ayrılmış həmrəylik ödənişlərini yerli klublar arasında qeyri-bərabər bölüb. Vəsaitdən Premyer Liqanın 8, I Liqanın 3 klubuna ödəniş ediləcək. Ən çox pul "Urartu"ya çatıb - 82 min avro. "Pünik" 78 min avro, "Van" 52 min avro qazanacaq. "Ararat Armeniya", "Alaşkert", "Ararat", "Noa" hərəyə 46,642 avro qazanacaq. "Noravank" və "Şirak" hərəyə 37 min avro, "Qandzasar" 20 min avro, "Lernain Artsax" 15,003 avro əldə edəcək.

Vəsait klubların hesabına mart ayında köçürüləcək. Hazırda bu klublardan ilk 8-i Premyer Liqada, son 3-ü isə I Liqada çıxış edir.

— Cüdo —

## Yeni qaydalar tətbiq edilib

Beynəlxalq Cüdo Federasiyası (BCF) növbəti Olimpiya dövrü (2022-2024-cü illər) üçün cüdo idman növü üzrə yeni qaydalar tətbiq edib. Yeni



yarış qaydalarına əsasən, bəzi əks fəndlərdə qiymətləndirmə olmayacaq və bir sıra hallarda cüdoçular kəmərdən aşağı tutmalardan da istifadə edə biləcəklər. Eyni zamanda, bəzi fəndlərin əks tərəfə tətbiqi qiymətləndirilməyəcək.

İdmançıları qorumaq məqsədi ilə yarış zamanı qanaxma zədəsi iki dəfə hakimin göstərişi ilə müayinə edilə bilər. Hakimin eyni yerdən qanaxmaya müdaxiləsinə yenidən ehtiyac yaranarsa, hakim rəqibi qalib elan edəcək.

Bundan əlavə kəmərin və saçın düzəldilməsinə bir dəfə icazə verilir, ikinci dəfə bu hal icazəsiz təkrar olunursa, bu hərəkət şido (xəbərdarlıq) ilə cəzalandırılacaq.

Eləcə də, cüdoqi (cüdoçunun yarış paltarı) qaydalara uyğun olmazsa, idmançı yarışdan kənarlaşdırılacaq.

Qeyd edək ki, böyüklər arasında dünya çempionatında iştirak üçün idmançı böyüklər arasında reytinq cədvəlində ilk 100-lükdə olmalıdır. Eyni zamanda, gənc idmançılar arasında ilk 16-lıqda olan cüdoçular da böyüklər arasında dünya çempionatına buraxılacaqlar. İndiyə qədər belə bir məhdudiyyət yox idi.

2024-cü il üçün Olimpiya Oyunlarının təsnifat mərhələsi 2022-ci il iyunun 24-də başlayacaq və 2024-cü il iyunun 23-də başa çatacaq. Olimpiya Oyunlarına lisenziya qazanmaq üçün dünya reytinq sıralamasında ilk 17-likdə yer almaq lazım olacaq. İlk 17-likdə eyni ölkədən iki idmançı yer alarsa, onlardan Olimpiya Oyunlarında yalnız biri iştirak edə bilər və bu zaman sıralamaya uyğun olaraq, ilk 17-likdə təmsilçisi olmayan və reytinqdə növbəti ən yüksək yerdə olan ölkənin idmançısı lisenziya əldə edəcək. Bundan başqa, qitələrə müvafiq kvotalar da ayrılacaq və idmançı bu kvotalar üzrə də Olimpiya Oyunlarına lisenziya qazanacaq.

Yeni yarış və idman qaydaları 2022-ci il yanvarın 28-30-da keçiriləcək Portuqaliya Qran-Prisindən etibarən tətbiq edilməyə başlanacaq.

Azərbaycan Cüdo Federasiyası BCF-in tətbiq etdiyi son dəyişikliklər barədə hakimlər heyəti, milli yığmanın məşqçiləri və idmançıları, həmçinin klub, cəmiyyət və müxtəlif idman təşkilatlarının cüdo üzrə məşqçiləri və mütəxəssisləri üçün növbəti həftədən etibarən beynəlxalq və daxili seminarlar təşkil edəcək, həmçinin izahedici video və çap materialları da hazırlanacaq.

Yeni qaydalar daxili yarışlarda 2022-ci ilin mart ayından etibarən tətbiq edilməyə başlanacaq.

* * *

Azərbaycan Cüdo Federasiyası Beynəlxalq Cüdo Federasiyasının (IJF) 2022-2024 Olimpiya dövrü üçün elan etdiyi yeni qaydalar haqqında seminarlar təşkil edir. Yanvarın 24-də beynəlxalq dərəcəli hakim Vladimer Nutsubidze tərəfindən başlayan seminarlarda hakimlərlə yanaşı, Azərbaycanın milli yığma komandalarının məşqçiləri və idmançıları, həmçinin müxtəlif klubların, cəmiyyətlərin və idman komandalarının məşqçiləri iştirak edirlər.

2 gün davam edəcək seminarın ilk günü Olimpiya stadionunda yerləşən "Neftçi" İdman Klubunun təlim-məşq mərkəzində keçirilib. Bu gün isə seminar "Atilla" və "Cüdo Klub 2012" idman klublarının təlim-məşq mərkəzlərində keçiriləcək.

Seminarların əsas məqsədi Beynəlxalq Cüdo Federasiyasının tətbiq etdiyi son dəyişikliklərin, hakimlər, məşqçilər və idmançılar tərəfindən mənimsənilməsidir.

Qeyd edək ki, beynəlxalq dərəcəli hakim Vladimir Nutsubidze Avropa, dünya çempionatı və Olimpiya Oyunlarının final mərhələlərini idarə edib. Eyni zamanda, 2017-ci ildə Avropa Cüdo Birliyi tərəfindən "Ən yaxşı hakim" seçilib.

* * *

Yanvarın 28-dən 30-dək Portuqaliyanın Odivelas şəhərində Qran-Pri turniri təşkil ediləcək. Turnirdə Azərbaycan komandasının 14 cüdoçusunun iştirakı planlaşdırılıb. Belə ki, yarışda Balabəy Ağayev, Rövşən Əliyev (60



kq), Yaşar Nəcəfov (66 kq), Nəriman Mirzəyev, Zaməddin Poladov (73 kq), Elcan Hacıyev, Zelim Tçkayev (81 kq), Rüfət İsmayılov (90 kq), Adil Kərimli (100 kq), İmran Yusifov, Uşangi Kokauri (+100 kq) iştirak edəcəklər. Qadınların turnirində isə Aydan Vəliyeva, Şəfəq Həmidova (48 kq) və Səbinə Əliyeva (52 kq) güclərini sınayacaqlar.

Turnirdə 46 ölkədən 400-dən çox idmançı iştirakını təsdiqləyib.

— Yubiley —

## Beynəlxalq dərəcəli hakimin 65 yaşı tamam olub

Güləş üzrə beynəlxalq dərəcəli hakim Qərib Əliyev bu günlərdə 65 yaşını qeyd edib. O, 1957-ci il yanvarın 22-də Sumqayıt şəhərində anadan olub. Yubilyar məşqçilik fəaliyyəti ilə 1978-ci ildən məşğul olur. 1980-ci ildə SSRİ idman ustası adına layiq görülən Qərib müəllim həmin ildən Sumqayıt şəhəri üzrə baş məşqçi vəzifəsində çalışır. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunu olan idman mütəxəssisi 1994-cü ildə beynəlxalq dərəcəli hakim adını alıb. O, 1996-cı ildə Əməkdar məşqçi, 2012-ci ildə Fəxri Bədən Tərbiyəsi və İdman işçisi fəxri adlarına layiq görülüb.



2011-2013-cü illərdə Azərbaycan Güləş Federasiyasının (AGF) Hakimlər Kollegiyasının sədri vəzifəsində çalışan Qərib Əliyev beynəlxalq dərəcəli hakim kimi uzunmüddətli və peşəkar fəaliyyətinə, ölkəmizi yerli və beynəlxalq arenalarda layiqincə təmsil etdiyinə, güləş qaydalarının incəliklərinin gənc nəsillərə aşılanmasında əvəzsiz xidmətlərinə görə dövlət tərəfindən də fəxri adlarla təltif edilib. Belə ki, o, 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalına, 2017-ci ildə isə Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi fəxri adına layiq görülüb.

Qərib Əliyev 2017-ci ildə hakimlik karyerasını başa vurub. Son olaraq Azərbaycan çempionatının sərbəst güləş üzrə 74 kq çəki dərəcəsində final görüşünü idarə edən Qərib müəllim hakim həmkarlarının və azarkeşlərin alqış sədaları altında xalçə ilə vidalaşıb.

Qərib Əliyev 2018-ci ildən Azərbaycan Güləş Federasiyasının Hakimlər Kollegiyasının sədri vəzifəsində çalışır.

25 ilə yaxın beynəlxalq dərəcəli hakim kimi müxtəlif yarışlarda ölkəmizi təmsil edən Q.Əliyevin məşqçilik fəaliyyəti də uğurlu olub. Onun yetirmələri müxtəlif səviyyəli beynəlxalq turnirlərdə, Avropa və dünya çempionatlarında mükafatçılar sırasında yer alıblar. Təcrübəli mütəxəssisin yetirmələrindən Emil Bəşirov yeniyetmələr arasında dünya çempionu, yeniyetmə və gənclər arasında Avropa birinciliyinin bürünc mükafatına layiq görülüb. Ruslan Eminov vaxtilə yeniyetmələr arasında dünya birinciliyinin gümüş, Nurəddin Rəcəbov isə gənclər arasında dünya birinciliyinin bürünc mükafatını qazanıblar. Bundan başqa onun yetirmələrindən Vüsal Qurbanov (yeniyetmə) Hüsaməddin Rəcəbov (gənclər) Avropa birinciliyinin bürünc medalını qazanıblar.

Qərib Əliyevin digər bir yetirməsi İslam Abbasovun uğurları isə daha çoxdur. Belə ki, o, yeniyetmələr və gənclər arasında dünya və Avropa çempionu tituluna layiq görülüb. Dəfələrlə Azərbaycan çempionu olan İslam Abbasov həm də böyüklər arasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş Qızıl Qran-pri turnirinin qalibi, Hərbçilərin dünya çempionatının gümüş mükafatçısıdır. İslam Abbasov həmçinin 2017-ci ildə paytaxtımızda təşkil olunan Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında qızıl medala layiq görülüb.

Qərib müəllimi yubiley münasibəti ilə təbrik edir, işlərində uğurlar arzulayırıq.

— Karate —



## Avropa Karate Federasiyası İcraiyyə Komitəsinin yığıncağı olub

Avropa Karate Federasiyasının (EKF) İcraiyyə Komitəsinin növbəti videokonfrans formatda yığıncağı keçirilib. Yığıncaqda 2022-ci ilin təqvim planına dəyişikliklər edilməklə hazırkı durumla bağlı yarışların tarixləri təsdiqlənib.

EKF-in prezidenti Antonio Espinosun sədrliyi ilə onlayn iclasın gündəliyində duran əsas məsələ - Türkiyənin Qaziantep şəhərində böyüklərin Avropa çempionatının tarixinin mayın 25-29-na dəyişdirildiyi bildirilib. Müzakirəyə çıxarılan məsələ ilə bağlı EKF-in İcraiyyə Komitəsinin üzvü Yaşar Beşirov da fikirlərini söyləyib.

Bundan başqa İcraiyyə Komitəsinin üzvləri cari məsələlərlə bağlı fikir mübadiləsi apарıblar. Sevindirici haldır ki, EKF-in 2022-ci ilin təqvim planına daxil edilən 20 müxtəlif səviyyəli turnir arasında Uşaqlar arasında Olimpiya ümidləri beynəlxalq turniri də var. 8-12 yaşlı uşaqların iştirakı ilə avqustun 27-28-nə nəzərdə tutulan beynəlxalq turnir ilk dəfə olaraq EKF-in rəsmi təqviminə salınıb.

— Şahmat —

## Çexiyada ardıcıl ikinci çempionluq

Çexiyanın Marianske-Lazne şəhərində keçirilən "Marienbad Open 2022" şahmat festivalına yekun vurulub. Yarışda ölkəmizi təmsil edən Azər Mirzəyev birinci yerə layiq görülüb. Təmsilçimiz 10 şahmatçının iştirakı ilə dairəvi sistem üzrə keçirilən yarışın sonuncu - IX turunda çexiyalı Riçard Stalmaxla qarşılaşıb. Ağ fiqurlarla oynayan qrossmeysterimiz rəqibinə qalib gələrək xalını 6,5-ə çatdırıb və turnirin qalibi olub.

A.Mirzəyevlə eyni sayda xal toplayan çexiyalı Voytex Plat (Çexiya) əlavə göstəricilərə əsasən, ikinci yeri tutub. Digər çexiyalı zəka sahibi Pavel Simaçek isə 6 xalla üçüncü olub.

Qeyd edək ki, bu, Azər Mirzəyevin Çexiyada ardıcıl qazandığı ikinci çempionluğudur. O, daha əvvəl - yanvarın 7-dən 14-dək Çexiyada keçirilən "Praqa Open" turnirinin də qalibi adına layiq görülmüşdü.



## Azərbaycan çempionatı Naxçıvanda keçiriləcək

Azərbaycan Şahmat Federasiyasının təsdiqlədiyi plana əsasən kişi şahmatçılardan ibarət ölkə çempionatının tarixi məlum olub. Kişi şahmatçıların yarışı fevralın 5-də Naxçıvanda start götürəcək. İlin ilk şahmat yarışının Naxçıvan Şahmat Federasiyasının dəstəyi ilə keçirilməsində əsas məqsəd şahmatda daha böyük kütləviliyə nail olmaq, eyni zamanda, Muxtar Respublikada şahmata olan marağı artırmaqdır.

Azərbaycan çempionatı 40 şahmatçının iştirakı ilə baş tutacaq və iki mərhələdə keçiriləcək. Birinci mərhələ İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq. İlkin mərhələnin nəticəsinə əsasən 1-4-cü yerləri tutan şahmatçılar ikinci mərhələdə pley-off sistemi üzrə yarımfinal və finalda çempionu müəyyən edəcəklər.

Azərbaycan Şahmat Federasiyası ölkə çempionatında rəqabəti yüksəltmək məqsədilə mükafat fondunu



artırmaq barədə qərar qəbul edib. İlk dəfə olaraq Azərbaycan çempionatının ümumi mükafat fondu 22 min olacaq.




# “Soyuq olimpiada” həyəcanı ilə döyünən isti ürəklər

*(əvvəli ötən sayımızda)*

İlin ən mötəbər idman tədbirlərindən biri olan Qış Olimpiya Oyunlarına az bir vaxt qalır. Dünyanın ən güclü idmançıları 4 illik fasilədən sonra bu dəfə Çin paytaxtında qələbə uğrunda yarışacaqlar. Gərgin və maraqlı keçən “soyuq olimpiada”da bizi yeni idman uğurları, yeni rekordlar və maraqlı hadisələr gözləyir. İdman nəşrləri arasında bütün yarışları geniş və zəngin faktlarla çoxsaylı oxucularına çatdıran “Olimpiya dünyası” qəzeti ötən saydan etibarən Qış



Olimpiya Oyunları ilə bağlı silsilə yazılara start verib. Əvvəli ötən sayımızda olan yazının ardını oxuculara təqdim edirik.

## Qeyri-adi hadisələr Olimpiadaya bir başqa rəng qatır

1924-cü ildə Fransanın Şamoni şəhərində keçirilən I Qış Olimpiya Oyunlarından 2018-ci ildə Cənubi Koreyanın Pxençxan şəhərində təşkil olunan XXIII Olimpiadaya qədər minlərlə maraqlı hadisələr baş verib. İstər yarış zamanı, istərsə də kənarda baş verən qeyri-adi hadisələr hələ də öz əhəmiyyətini itirməyib. Onların hər biri haqqında geniş məqalə, hətta film hazırlamaq olar.

- Kortina-D Ampetso-1956 Olimpiadasından sonra fiqurlu konkisürmə yarışları bir daha açıq havada keçirilməyib.

- Dünya şöhətli Uolt Disney 1960-cı ildə Kaliforniyanın Skvo-Velli şəhərində keçirilən Qış Olimpiya Oyunlarının açılış və bağlanış mərasiminin rejissoru olub.





- Bil Conson dağ xizəyində Avropa qitəsində ilk qızıl medal qazanan amerikalıdır. O, 1984-cü ildə Sarayevoda keçirilən XIV Qış Olimpiadasında bu nəticəyə nail olub.



- Milli Hokkey Liqasının oyunçuları yalnız Naqano-1998-dən sonra Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanıblar.

- Flip Boyt Keniyanı (Naqano-1998, Solt-Leyk-Siti-2002 və Turin-2006) üç Qış Olimpiya Oyunlarında dağ xizəyində təmsil edən ilk idmançı kimi tarixdə yer alıb. Dörd il əvvəl Pxençxan-2018 Olimpiadasında o, öz ölkəsinin nümayəndə heyətinin rəhbəri olub.

- Dünyanın ən nəhəng dağ xizək trası Birləşmiş Ərəb Əmirliyində yerləşir. 2005-ci ildə “Ski Dubay” adı altında inşa olunan trasın ərazisi 22 min kvadrat kilometrdir. 60 metr hündürlük və 5 eniş zolağına malik olan bu qurğu 6 min ton süni qarla təchiz edilib.



- Amerikalı əfsanəvi dağ xizəkçisi Lintsi Von Vankuver-2010 Qış Olimpiya Oyunlarında 5 idman növündə çıxış edib. O, sürətli enişdə qızıl, supernəhəngdə isə bürünc medal əldə edib. Qeyd edək ki, həmin vaxtı Lintsi mübarizəyə ciddi zədə ilə başlamışdı.



- Fristayılçı Qas Kenuorti Soçi-2014 Qış Olimpiya Oyunlarında sloup stayl növündə gümüş mükafata layiq görülüb. Tamaşaçılar onu eyni zamanda “Amerikanın dəhşət tarixi” serialının aktoru kimi tanıyırlar.

- Pxençxan-2018-in sosial şəbəkələrdə ən populyar idmançısı Şon Uayt olub. Xafpayp növündə Turin-2006, Vankuver-2010 və Pxençxan-2018 Olimpiadasında üç qızıl medal əldə edən Şon karyerası ərzində heç vaxt dünya çempionu adını qazanmayıb.

- KXDR və Cənubi Koreya idmançıları Pxençxan-2018-də komanda şəklində bir bayraq altında açılış mərasimində iştirak ediblər.

- Skeleton idman növündə yürüşçülər buzlu trasda başı irəli uzanmış vəziyyətdə, saatda 130 km sürətlə yarışırlar.

- Qış Olimpiya Oyunlarında xizəkçilər təxminən 50 km məsafəni 2 saata qədər qət edirlər.

- Şort-trek idman növündə idmançılar 5 min metr məsafəni qət etmək üçün 45 dəfə dövrə vururlar.

- Bobsley heyəti buzlu trasda sərt döngələri 130-140 km sürətlə dəf edirlər.

- Qış idman növlərində ən təhlükəli idman növü hokkey sayılır. Bu növdə idmançılar yarış zamanı müxtəlif dərəcəli xəsarətlər alırlar. İndiyə qədər ən çox zədəyə məruz qalan hokkeyçi kanadalı Eddi Şor olub. Belə ki o, 20 il ərzində 14 dəfə burnunu, 5 dəfə isə çənəsini qırıb. Onun bədənində minə yaxın çapıq var idi.



Belə ki, 1933-cü ildə Bostonda keçirilən və tarixdə ən qanlı peşəkar hokkey matçı kimi yer alan qarşılaşmada rəqib Eddinin başını buz döşəməyə vurmuşdu. Eddi bu zədədən sonra təxminən bir həftə həyatla ölüm arasında çarpışmışdı. Bu hadisədən bir müddət sonra keçirilən xeyriyyə matçına Eddi Şor dəri dəbilqə ilə çıxmışdı. Eddi Şorun sayəsində sonradan hokkeyçilərin hər biri dəbilqə taxmağa məcbur edildi.



## Minilliklərdən yadigar qalan müasir idman növləri

Qış idman növlərinin hər birinin özünəməxsus yaranma tarixi var. Maddi mənbələrə əsaslanaraq qeyd edək ki, onların bəzilərinin formalaşması bizim eradan əvvələ gedib çıxır. Həmin tarixdə idman növü kimi olmasa da, həmin ərazilərdə yaşayan insanların məşğuliyyət və əyləncə növü kimi geniş vüsət alıb.

- Müasir skeletonun ən qədim nümayəndəsi hindular tərəfindən Kanada ərazisində kirşə formasında yaradılıb.

- Arxeoloqlar tərəfindən aparılan qazıntılar nəticəsində ən qədim konki eramızdan 3200 il əvvəl Şimali Qara dəniz bölgəsində tapılıb.

- Kerlinq ilk dəfə 16-cı əsrdə Şotlandiyada yaradılıb. Məhz buna görə də kerlinq daşının üzərində “1511-ci ildə yaranıb” sözü yazılıb. İki əsr sonra okeanın o tayında yəni Kanada ərazisində hokkeyçilər ayaqlarına çəkmə geyinərək, bölünmüş pendirlə kerlinq yarışı keçirirdilər.




- Tramplindən tullanma ilk dəfə Norveçdə yaradılıb. Rəsmi sənədlərə görə 1808-ci ilin noyabrında leytenant Olaf Ryue 9,5 metr hündürlükdən tullanaraq xüsusi şücaət göstərmişdir.

- XX əsrin 50-ci illərində fristayl xizək baleti kimi dağlara səyahət edən kütlə üçün bir məşğuliyyət növü idi.



- 1965-ci ildə Miçiqan ştatının, Maskiqon şəhərində yaşayan Şerman Poppin iki xizəyi birləşdirərək, snoubord alətini yaradıb, adını isə “snyorfer” qoyub.

- Bobsleyin vətəni İsveçrə sayılır. 1988-ci ildə ingiltərəli turist Uilson Smit 2 kirşəni taxta lövhə ilə bir birinə bağlayaraq, Sankt-Morrisdən Çelerinə qədər səyahətə çıxıb.





***Dörd illik fasilədən sonra idmançılar bu dəfə Çin paytaxtına toplaşacaqlar. Dünyanın təxminən 90-a yaxın ölkəsindən 4 minədək idmançı qələbə uğrunda yarışacaqlar. Fevralın 4-dən 20-dək Pekində təşkil olunacaq XXIV Qış Olimpiadasında Azərbaycan təmsilçiləri də iştirak edəcəklər. Ölkəmizi bu dəfə "Ağ Olimpiada"nın fiqurlu konkisürmə yarışlarında Yekaterina Ryabova və Vladimir Litvintsev təmsil edəcək. Olimpiadada komandamızın bayraqdarı Vladimir Litvintsev olacaq.***

***Məlumat üçün qeyd edək ki, Azərbaycan Olimpiya yığması qış olimpiadalarında 1998-ci ildən iştirak edir.***

# Naqanodan Pekinə gedən yol



Hər zaman öz oxucularına Olimpiya Oyunları haqda ətraflı məlumat verən "Olimpiya dünyası" qəzeti bu dəfə də bu ənənəni davam etdirir. Qəzetimizin budəfəki sayında Azərbaycanın Olimpiya komandasının Qış Olimpiya Oyunlarındakı çıxışı barədə məlumat verəcəyik.

Milyonların sevə-sevə izlədiyi yay və qış Olimpiya Oyunlarının saysız-hesabsız azarkeşləri və pərəstişkarları vardır. Maraq dairəsi müxtəlif olan insanların bəzisi yay, bəzisi isə qış Olimpiya Oyunlarına ("Ağ Olimpiada") üstünlük verirlər.

"Ağ Olimpiada" (1924), yaranma tarixinə görə yay Olimpiya Oyunla-



rından (1896) daha gəncdir. Qış idman növü olan fiqurlu konkisürmə yarışları ilk dəfə 1908-ci ildə Londonda keçirilən IV Yay Olimpiya Oyunlarının proqramında nümayiş etdirilib. İştirakçıların sayı az olduğundan, bu növ üzrə yarışlarda rəqabət zəif olub. İkinci dəfə qış idman növləri 1920-ci ildə Antverpen Yay Olimpiya Oyunlarının proqramına daxil edilib.

Müasir Olimpiya Hərəkatının banisi Pyer de Kuberten hələ XX əsrin əvvəllərində qış idman növləri üzrə ayrıca Olimpiya Oyunlarının keçirilməsi barədə təklif vermişdi. Beynəlxalq Olimpiya Komitəsi (BOK) Kubertenin bu təklifini dəfələrlə müzakirə etsə də, müsbət nəticəyə gələ bilməmişdi. Çünki Skandinaviya ölkələri bununla razılaşmaq istəmir, İsveç və Norveçin idman nümayəndələri isə bu təklifin lüzumsuz olduğunu hesab edirdilər. Onlar iddia edirdilər ki, qış idman növləri üzrə məşhur idmançılar onsuz da, 1901-ci ildən ənənvi keçirilən Şimal Oyunlarında iştirak edirlər və bu oyunlarla yanaşı, ayrıca Qış Olimpiya Oyunlarının keçirilməsinə ehtiyac yoxdur.

Lakin Olimpiya ideyalarının və prinsiplərinin təbliğində əvəzsiz xidmətləri olan mübariz insan Pyer de Kuberten bu əhəmiyyətli məsələdə yüksək əzmkarlıq və qətiyyət nümayiş etdirdi. Onun təklifi ilə BOK-un 1922-ci ildə keçirilən Paris sessiyasında əsas müzakirə mövzusu qış idman növləri üzrə Olimpiya Oyunlarının keçirilməsi oldu. Nəhayət, uzun sürən diplomatik danışıqlardan sonra baron narazı ölkələrlə razılıq əldə edə bildi. Paris sessiyanın qərarına görə, I Qış Olimpiya Oyunlarının 1924-cü ildə keçirilməsi planlaşdırıldı. 1991-ci ildə Beynəlxalq Olimpiya Komitəsinin sessiyasında, 1994-cü ildən başlayaraq, yay Olimpiya Oyunlarının qış Olimpiya Oyunları ilə növbəli keçirilməsi və oyunlar arasında 2 illik fasilənin təmin edilməsi haqqında qərar qəbul edildi: XVII Qış Olimpiya Oyunlarının 1994-cü ildə, XXVI Yay Olimpiya Oyunlarının isə 1996-cı ildə keçirilməsi planlaşdırıldı. O vaxtdan etibarən yay və Qış Olimpiya Oyunları ikiillik fasilə ilə növbəli keçirilir.

Qeyd edək ki, indiyədək cəmi 23 qış Olimpiya oyunları keçirilib. İkinci Dünya müharibəsi ilə əlaqədar olaraq, 1940-1944-cü illərdə nəzərdə tutulan qış olimpiadaları keçirilməyib.

## Atletlərimizin Qış Olimpiya Oyunlarındakı 7-ci cəhdi

Azərbaycan idmançılarının Olimpiya Oyunlarında iştirakını təmin etmək Milli Olimpiya Komitəsinin başlıca vəzifələrindəndir. Olimpiya Hərəkatının genişləndirilməsi, idmanın kütləviliyi, maddi-texniki bazanın möhkəmləndirilməsi ölkədə idmanın kompleks inkişafını şərtləndirən amillər olduğundan bu sahəyə dövlət səviyyəsində diqqət və qayğı göstərilir. Artıq ölkəmizdə yay idman növləri ilə bərabər, qış idman növlərinə də şərait yaradılıb. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev 2006-ci il iyul ayının 28-də Qusar rayonunda Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimində Şahdağın ətəyinin qış idman növlərindən dağ xizəkçiliyi üçün çox əlverişli olduğunu bildirmiş və bu sahənin inkişafının vacibliyini vurğulamışdı. Hazırda Şahdağ qış və yay turizm kompleksi qış idman növlərinin təbliği və inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən baza rolunu oynayır.

Müstəqil Azərbaycanın Qış Olimpiya Oyunlarında iştirakı 1998-ci ildən başlayır. İdmançılarımız 1998-ci ildə Yaponiyanın Naqano, 2002-ci ildə ABŞ-ın Solt-Leyk-Siti, 2006-cı ildə İtaliyanın Turin, 2010-cu ildə Kanadanın Vankuver, 2014-cü ildə Rusiyanın Soçi, 2018-ci ildə isə Cənubi Koreyanın Pxençxan şəhərində mübarizə aparıblar. 1998-ci il fevralın 1-də Naqanodakı (Yaponiya) Olimpiya kəndində Azərbaycanın dövlət bayrağı qaldırılması ölkənin idman həyatı üçün əlamətdar hadisə kimi yadda qalıb. Bu hadisə Azərbaycanın adını ilk dəfə Qış Olimpiya Oyunlarının salnaməsinə həkk edib. İndiyə qədər qış Olimpiya idman növlərində Azərbaycanı Yuliya Vorobyova, İqor Paşkeviç, İnqa Rodionova, Aleksandr Onişşenko, Sedrik Noçs, Qaya Bassani Antivari, Alexei Sitnikov, Yuliya Zlobina, Sergey Rılov, Kristina Freyzer, İqor Lukanin, Elbrus İsakov, Patrik Braxner kimi idmançılar təmsil ediblər.

## *Azərbaycan idmançılarının iştirak etdiyi Qış Olimpiya Oyunları*

### Naqano-1998

Azərbaycan Naqano-1998 Olimpiadasında 5 idmançı ilə təmsil olunurdu. Ölkəmizi fiqurlu konkisürmə idmanı üzrə fərdi yarışlarda Yuliya Vorobyova (qadınlar), İqor Paşkeviç (kişilər), cütlüklərin yarışında İnqa Rodionova və Aleksandr Onişşenko təmsil edirdilər. Y.Vorobyova 16-cı, İqor Paşkeviç 16-cı və İ.Rodionova-A.Onişşenko cütlüyü yarışları 18-ci yerdə başa vurdular. Ölkəmizi dağ xizəyi idman növü üzrə təmsilçisi Elbrus İsakov xəstələndiyinə görə yarışlarda iştirak edə bilmədi.

### Solt-Leyk-Siti-2002

2002-ci ildə ABŞ-ın Solt-Leyk-Siti şəhərində keçirilən XIX Qış Olimpiya Oyunlarında Azərbaycan Olimpiya yığması ikinci dəfə iştirak edirdi. Ölkəmiz bu yarışlarda iki idman növü - fiqurlu konkisürmə və dağ xizəyi üzrə 4 idmançı ilə təmsil olunurdu.

Cütlüklərin fiqurlu konkisürmə yarışlarında ölkəmizi təmsil edən Kristina Freyzer və İqor Lukanin qısa, məcburi və sərbəst çıxışlardan sonra 32 ölkənin nümayəndələri arasında 17-ci yeri tutdular.

Fiqurlu konkisürmə üzrə kişilərin fərdi yarışlarında Azərbaycanı təmsil





edən Sergey Rılov yarışlara həmvətənlərindən tez qatılsa da, imkanlarından aşağı səviyyədə çıxış etdi. Dağ xizəkçisi Elbrus İsakov slalom yarışında birinci cəhddə məsafənin yarısını keçə bildi və mübarizəni dayandırmalı oldu.

### Turin-2006

Azərbaycan idmançıları Turin-2006 Qış Olimpiya Oyunlarında iştirak etməklə üçüncü dəfə idi ki, bu oyunlara qatılırdılar. Bu yarışlarda ölkəmizi 4 idmançı - dağ xizəkçisi Elbrus İsakov, fiqurlu konkisürmə cütlüyündə Kristina Freyzer və İqor Lukanin, fərdi konkisürmədə Sergey Rılov təmsil edirdilər. Bundan başqa, Beynəlxalq Konkisürmə Federasiyasının üzvü olan hakimlərimiz Yevgeniya Boqdanova və İrina Yeçkina bu oyunlarda ədaləti qoruyublar.

Fiqurlu konkisürmə növündə Azərbaycan cütlüyü 23 ölkə idmançısının iştirak etdiyi yarışda Ermənistan, Polşa, İsrail, Ukrayna idmançılarını geridə qoyaraq 19-cu pillədə yer alıb.

### Vankuver-2010

2010-cu ildə Kanadanın Vankuver şəhərində keçirilən XXI Qış Olimpiya Oyunlarında ölkəmiz dağ xizəyi idmanının slalom və nəhəng slalom yarışlarında 1 kişi və 1 qadın atletlə təmsil olunub. Nəhəng slalom yarışlarında Azərbaycanı Sedrik Noçs təmil edib. Qadınların nəhəng slalom yarışlarında isə Qaya Bassani Antivari mübarizə aparıb.

### Soçi-2014

Rusiyanın Soçi şəhərində keçirilən XXII Qış Olimpiya Oyunlarında ölkəmizi dağ xizəyi üzrə Patrik Braxner (kişilər), Qaya Bassani Antivari (qadınlar) və fiqurlu konkisürmə cütlüyü Alexei Sitnikov və Yuliya Zlobina təmsil ediblər.

### Pxençxan-2018

XXIII Qış Olimpiya Oyunları 2018-ci il fevralın 9-25-də Cənubi Koreyanın Pxençxan şəhərində keçirilib. Dünyanın 92 ölkəsindən Oyunlara qoşulan idmançılar arasında Azərbaycan dağ xizəkçiliyinin slalom növü üzrə Avstriya əsilli atlet Patrik Braxnerlə təmsil olunub. Bu, ölkəmizin Qış Olimpiya Oyunlarında 6-cı dəfə iştirak etdiyi idman tədbiri idi.

İdmançımız Patrik Braxner Olimpiada zamanı iştirak etdiyi məşqlərdə ümidverici nəticələr göstərsə də, o, rəsmi yarışda finişə çata bilməyib. Beləliklə, təmsilçimiz ilk cəhddə uğursuz çıxış etdiyindən, mükafatçıların müəyyənləşdirildiyi ikinci yürüşdə iştirak etməyib. İdmançımız yekunda 68-ci yeri tutub.

***Hazırladı:***
***Anar Əhmədov***

## Ölkəmizdə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş turnirlər keçirilib



Yanvarın 21-22-də Bakı İdman Sarayında Azərbaycan Milli Karate Federasiyası və "Arpaçay" karate klubunun birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş VI "Arpachay Open" beynəlxalq karate turniri keçirilib. Ənənəvi yarışda ölkənin 30-dək klubunu təmsil edən 550-dək idmançı iştirak edib. Xatirə turniri uşaq, yeniyetmə və 21 yaşadək gənclər arasında 7 yaş dərəcəsi üzrə təşkil olunub. Turnirdə Dünya Fudokan Federasiyasının Azərbaycandakı nümayəndəliyinin idmançıları federasiyanın vitse-prezidenti, Əməkdar məşqçi Bəşir Mahmudovun rəhbərliyi altında öz qüvvələrini sınayıblar. İdmançılardan Vahid Həsənov (16-17 yaş, +76 kq), Rza Rzazadə (18-21 yaş +84 kq) bütün rəqiblərinə qalib gələrək turnirin qalibi adını qazanıblar. Ömər Səlimov (52 kq) ikinci, Xədicə Vəlizadə (hər ikisi 14-15 yaş, +54 kq) üçüncü yerləri tutublar. Hacıəli Vəlizadə (84 kq) isə 18-21 yaşlı idmançıların yarışında ikinci yerə sahib çıxıb.

* * *

"Təhsil" Respublika İdman Mərkəzinin 4 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbində 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş blitz şahmat turniri keçirilib. Yarışlar 10, 12 və 14 yaş qrupları üzrə təşkil olunub.

Turnirdə 10 yaşınadək şahmatçılar arasında Tunar Fərhadlı birinci yerə layiq görülüb. Yasəmən Fərziyeva ikinci, Yunis Quliyev isə üçüncü yerə sahib çıxıb.

12 yaşınadək şahmatçıların turnirində Elsevər Bayramov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Nihad Allahverənov 2-ci, Adəm Yusifov isə üçüncü yeri tutub.

14 yaşınadək zəka sahiblərinin yarışında Nail Əliyev qalib adını qazanıb. Malik Gülməmmədli ikinci, Vaqif Həmzəyev isə üçüncü olub.

Yarış çərçivəsində eyni zamanda dama üzrə onlayın açıq turnir də keçirilib. Oğlanlar və qızlar arasında keçirilən yarışda qaliblərin adlarına aydınlıq gəlib.

Oğlanlar arasında yarışda Rəvan Aslanov (Bakı) birinci, Asif Aşurov (Bakı) ikinci, Rəsul Quliyev (Gəncə) isə üçüncü yerə sahib çıxıb.

Qızların mübarizəsində Gəncə təmsilçisi Zeynəb Heydərova birinci yeri tutub. Naibə Vəlizadə (Bakı) ikinci, Gültac Nağıyeva (Gəncə) isə üçüncü yerlə kifayətlənib.

Yarışın qalib və mükafatçıları müvafiq olaraq, dilom və medallarla təltif olunublar.

* * *

İsmayıllı Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş cüdo üzrə rayon birinciliyi keçirilib. Tədbirin keçirilməsində əsas məqsəd cüdoya olan marağın artırılması, kütləviliyin təşviqi, 20 Yanvar şəhidlərinin idmançılar arasında təbliği, idmançıların təlim-məşq prosesinin təkmilləşdirilməsi, yeniyetmə və gənc idmançıların vətənpərvərlik ruhunun yüksəldilməsi, o cümlədən rayonda yeniyetmələr və gənclər arasında idmanın bu növünün inkişaf etdirilməsidir.



İsmayıllı Olimpiya İdman Kompleksində keçirilən yarışda əvvəlcə 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yarışda qalib gələn idmançılara İsmayıllı Rayon Gənclər və İdman İdarəsi tərəfindən diplomlar təqdim olunub.

* * *

Nəsimi rayonundakı 240 nömrəli tam orta məktəbdə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş voleybol turniri keçirilib. Rayon məktəblilərinin iştirak etdiyi yarışda 14 nömrəli tam orta məktəbin komandası birinci yeri tutub. Texniki Humanitar Liseyin voleybolçuları ikinci, Bakı Slavyan Universitetinin nəzdində Məktəb-Lisey Kompleksinin komandası isə üçüncü yerə layiq görülüblər.

Qaliblər kubok, diplom və medallarla təltif olunublar.

## 1 saylı İOEUGİŞM ötən ili uğurla başa vurub

Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən məktəbdənkənar təhsil müəssisələrində 2021-ci ildə görülən işlər, mövcud vəziyyət və qarşıda duran vəzifələrlə bağlı videokonfrans keçirilib.

Videokonfransda təhsil nazirinin müavini Firudin Qurbanov, nazirliyin məktəbdənkənar fəaliyyətinin təşkili şöbəsinin əməkdaşları, Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər inkişaf mərkəzlərinin, uşaq-gənclər idman-şahmat məktəblərinin direktorları iştirak ediblər.

Videokonfransda nazir müavini F.Qurbanov bildirib ki, "Təhsil" RİM-in Sumqayıt şəhər 1 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbi 2021-ci ildə Avropa çempionatlarında, MDB oyunlarında, respublika çempionatlarında və beynəlxalq miqyaslı yarışlarda yüksək idman nailiyyətləri qazanıblar. O, məhz buna görə 1 saylı İOEUGİŞM-in respublikada fəaliyyət göstərən idman məktəbləri arasında xüsusilə fərqlənərək birinci yerdə olduğu qeyd edib.

Məlumat üçün bildirək ki, "Təhsil" RİM-in Sumqayıt şəhər 1 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin idmançı-şagirdləri 2021-ci ildə beynəlxalq yarışlarda 33 medal (13 qızıl, 6 gümüş, 14 bürünc), respublika yarışlarında 52 medal (16 qızıl, 13 gümüş, 23 bürünc) qazanıblar.

## Sumqayıt komandası üçüncü yerə layiq görülüb

Yanvarın 14-16-da Bakıda cüdo üzrə 2005-2007-ci illər təvəllüdlü yeniyetmə oğlan və qızlar arasında Azərbaycan birinciliyi keçirilib. Yarışda"Təhsil" RİM-in Sumqayıt şəhər 1 saylı İOEUGİŞM-nin idmançıları uğurlu çıxış ediblər. Qızların yarışında Məryəm Bayramzadə (40 kq) və Telli Atazadə (57 kq) birinci yerə layiq görülüblər. Aytən Verdiyeva (52 kq) birincilikdə bürünc medalla kifayətlənib.



Oğlanların yarışında Kamran Heydərli (46 kq) bürünc mükafat qazanıb. Yekun nəticələrə əsasən komanda yarşında məktəbin cüdoçuları üçüncü yeri tutub.

## Voleybol millilərimiz reytinq cədvəlində irəliləyib

Qadın voleybolçulardan ibarət milli komandaların reytinq siyahısı açıqlanıb. Beynəlxalq Voleybol Federasiyasının (FIVB) açıqladığı siyahıda Azərbaycan yığması da yer alıb. Millimiz 94 xalla dünyanın 42-ci komandasıdır. Yığmamız ötən reytinq siyahısı ilə müqayisədə 10 pillə irəliləyib. Xal hesabı dəyişməyən yığmanın bu sıçrayışı FIVB-nin sanksiyaları sayəsində mümkün olub. Qurum bir sıra yığmaların aktivindən 50 xal silib.

Cəzalananlardan Venesuela, Əlcəzair, Avstraliya, Misir, Kipr kimi ölkələr millimizdən geri düşüb. Cədvəldə ilk üçlükdə ABŞ (385), Braziliya (366) və Çin (350) milliləri yer alıblar.

FIVB kişi voleybolçulardan ibarət milli komandaların da reytinq siyahısını açıqlayıb. Tərtib olunan yeni siyahıda millimiz 96 xalla dünyanın 51-ci komandasıdır. Xal hesabı dəyişməyən yığmamız ötən siyahı ilə müqayisədə 5 pillə irəliləyişə nail olub. Buna səbəb isə beynəlxalq federasiyanın digər ölkələrin millilərinə tətbiq etdiyi sanksiyalar olub. Qurum bir sıra yığmaların aktivindən 50 xal silib.

Cədvəldə ilk üçlükdə Braziliya (399), Polşa (384) və Rusiya (352) milliləri qərarlaşıblar.

## Millimizdən uğursuz başlanğıc



Futzal üzrə Azərbaycan milli Avropa çempionatının final mərhələsində mübarizəyə başlayıb. Joze Alesio da Silvanın yetirmələri yanvarın 23-də D qrupunda ilk oyununa çıxıb. Niderlandın Qroningen şəhərindəki "Martini Plaza"dakı qarşılaşmada rəqib Gürcüstan yığması olub. Sayca 6-cı dəfə qitə birinciliyində mübarizə aparan komandamız Avropa çempionatının debütantı Gürcüstan önünə qollarla başlayıb. Rafael Vilelanın iki dəqiqə ərzində dublu ilə komandamız hesabda irəli çıxıb. Lakin Joze Alesionun yetirmələri bu üstünlüyü qoruya bilməyib. İlk yarıda fərqi minimuma endirən gürcüstanlılar ikinci hissənin əvvəllərində hesabı bərabərləşdirib. Qoldan sonra hücumlarını artıran Gürcüstan komandası qələbə qolunu da vurmağa müvəffəq olub. Beləliklə, rəqibinə 3:2 hesabı ilə uduzan komandamız çempionata məğlubiyyətlə başlayıb.

Qeyd edək ki, millimiz növbəti oyununu ikinci tur çərçivəsində yanvarın 26-da İspaniya komandasına qarşı keçirəcək.

## Sablyaçılarımız dünya kubokunun mərhələ yarışında iştirak ediblər

Tbilisidə keçirilən sablya üzrə dünya kubokunun mərhələ yarışına yekun vurulub. Turnirin sonuncu günündə kişi və qadın iştirakçılar arasında komanda yarışında qaliblər müəyyənləşib.

Qadın sablyaçıların yarışında Anna Başta, Səbinə Kərimova, Sevil Bünyatova və Palina Kaspiaroviçdən ibarət komandamız ilk görüşündə Gürcüstanı təmsil edən kollektivə 45:43 hesabı ilə qalib gəlib. Komandamız ən güclü 8-liyə yüksəlmək üçün keçirilən görüşdə Macarıstan yığmasına 43:45 hesabı ilə məğlub olub. Qadın sablyaçılarımız 9-16-cı yerlər uğrunda keçirilən görüşlərdə ilk olaraq Qazaxıstan seçməsinə 45:42 hesabı ilə qalib gəliblər. Ardınca Yaponiya yığmasına 40:45 hesabı ilə məğlub olan komandamız 11-ci yer uğrunda keçirilən görüşdə Ukrayna millisinə 36:45 hesabı ilə uduzub.

Komandamız turniri 12-ci pillədə başa vurub.

## Şpaqaçılarımız Bəhreyndə yarışıblar



Şpaqa üzrə gənclərdən ibarət Azərbaycan milli komandasının üzvləri Kənan Məlikzadə və Elçin Daşdəmirov Bəhreynin paytaxtı Manama şəhərində keçirilən dünya kubokunun mərhələ yarışında çıxışını başa vurub. Qrup mərhələsini 2 qələbə ilə başa vuran şpaqaçılarımız 32-liyə yüksəlmək uğrunda keçirilən pley-off görüşündə məğlubiyyətlə üzləşib. Elçin Daşdəmirov pley-offda BƏƏ-ni təmsil edən Məhəmməd Əl Maazmiyə (7:15), Kənan Məlikzadə isə isveçrəli Paskal Qrunderə (5:15) uduzub.

Hekayə

# Sumoçu qadın



Mobil İSMAYILOV

*(əvvəli qəzetimizin 2-ci sayında)*

Bir dəfə Ruslan əlverişli təklif ilə bağlı Dinaraya Sankt-Peterburqdan qonaqların gələcəyini bildirdi. Lakin Dinara ərinin məlumatını könülsüz qəbul etdi. Nəzərdə tutulan gündə Ruslan qonaqları qarşılayıb şəhərkənarı villasına gətirdi. Gələnlər iki nəfər idi. Onlardan birini ər-arvad tanıyırdı. Moskvada keçirilən turnirdə tanışlıqları yaranmışdı. İqor adlı "Şərq-Qərb" əlbəyaxa döyüş klubunun sahibi olan həmin şəxs qadınlar arasında qaydasız döyüşlər üzrə yarışlarda səriştəli mütəxəssis kimi ad-san çıxarmışdı.

- Mənimlə gələn dostumu Piterdə demək olar ki, tanımayan yoxdur. Rəşid gecə klubları, restoranlar şəbəkəsinə malikdir. Şəhərdə ən böyük kazino ona məxsusdur - deyə, İqor birgə gəldiyi şəxsi təqdim etdi. Və əlavə etdi ki, sizin müsəlman qardaşınızdır, amma azərbaycamlı deyil. Söhbətləri alınsa, Rəşid bizə sponsorluq edəcəkdir.

Sonra İqor gəlişlərinin məqsədini açıqladı.

- Cənubi Amerikada qadınlar arasında qaydasız döyüş üzrə qeyri-adi yarışlar təşkil olunur. Moskva turnirinin axırıncı qalibi kimi Dinanı okeanın o tayına aparmaq qərarı vermişik. Piterli qızlar keçən səfərimizdə uğursuzluğa məruz qaldılar. Ona görə də bu dəfə Dinanın üzərində dayanmışıq. Cənublu çempiona güvənirik. Düşünürük ki, o, bizim ümidlərimizi doğrulda bilər. Ötən il Boliviyada olmuşduq. Bu dəfə də səfərimizi həmin ölkəyə planlaşdırırıq. Bakılı çempion tək olmayacaq. Heyətə bir neçə idmançı daxil etmişik.

Bayaqdan diqqətlə qulaq asan Dinara cavabını ləngitmədi.

- Əvvəla, mən heç vaxt qaydasız döyüşlərdə iştirak etməmişəm. Bizim klub qadın sumosu ilə məşğul olur. Qızlarımız da indi əsasən şou-proqramlar göstərir. Moskvadakı turnir də əslində şou xarakteri daşıyırdı. Adını çəkdiyiniz ölkədə iştirakçılar şübhəsiz ki, peşəkardırlar. Digər tərəfdən də hər bir halda yarışın ünvanı mənim bilmədiyim sahə, uzaq ölkədir, ora heç kim gəzməyə getmir. Qorxuram ki, sizin gözləntilərinizi reallaşdırmayam. Bir sözlə, mənim üçün çətin olar.

- Sən əla idmançısan, Dina. Videogörüntülərin hamısına baxmışıq. Keçmişini də nəzərə alsaq, əsl peşəkar sənsən. Qarşında heç kim duruş gətirə bilməz. Turnirin adının qaydasız döyüşlə bağlı olması isə əslində simvolik məna daşıyır. Orada döyüşün bütün növləri qarışır bir-birinə. Kim nəyi bacarırsa, bildiklərini də tətbiq etməyə çalışır. Yəni, necə deyərlər, belə yarışların janrı olmur. Sadəcə, sənə bir neçə həftəlik məşqlərlə qaydasız döyüş idman növünün xüsusiyyətlərini mənimsəmək lazım gələcək, vəssalam.

- Yeri gəlmişkən Boliviyada keçirilən turnirlərin fərqli cəhətlərini də bilmək vacibdir, - deyə Rəşid söhbətə qoşuldu. Bu ölkədə qadınlar arasındakı yarışlar çox populyardır. Döyüşlərdə daha çox 50 yaşdan yuxarı qadınlar iştirak edir. Əlbəttə, bu nisbi amil yerli idmançılara aiddir. Ənənəvi hindu geyimlərində yarışlara qatılan qadınlar elə hindular kimi də döyüşürlər. Onlar yaşlarına uyğun olmayan cəldliklə bir-birinin üzərinə atılır, sanki rinqdə uçurlar. Bəzən elə olur ki, rəqibi bərk itələyib tamaşaçıların üstünə aşırırlar. Elə sumoda olduğu kimi. Bu, artıq tam qələbə sayılır. Amansız, qanlı döyüşlərə də təsadüf edilir. Amma yerli idmançılar istəkli görünsələr də, kortəbii mübarizə aparırlar. Onların əksəriyyəti fəndlərdən xəbərsizdir. Bax, burada bizim Dinanın böyük üstünlüyü yaranacaq. Eyni zamanda şou məzmunlu döyüşlər də təşkil olunur. Təbii ki, proqramları yerində dəqiqləşdirəcəyik.

- Bu tip yarışlar şirkətlərə reklam müqavilələri bağlamağa imkan verir. Ona görə də ortaya böyük pullar qoyulur. Özünü sına, bizim çempion. Xoşbəxtlik açarı artıq sənin əlindədir, - deyə, İqor əlavə etdi.

- Mən fikirləşməliyəm. Qərarımı sabah bildirərəm - deyə, Dinara qayğılı halda cavab verdi.

Ruslan qonaqları hotelə yerləşdirib, qayıtdıqdan sonra təkliflə bağlı xeyli söhbət etdilər.

- Ruslan, indi bizim hər şeyimiz var. Özü də artıqlaması ilə. Şəhərin mərkəzində təmirli mənzillərimiz, dənizin sahilində villamız, bahalı maşınlarımız. Hətta çətinlik çəkmədən istənilən xarici ölkədə də yaşaya bilərik. Söhbət böyük pullardan getsə də, daha belə layihələrə qoşulmaq istəmirəm. Ümumiyyətlə, aktiv idmandan aralanmaq fikrindəyəm. Yarışlar məni yorub. Bundan sonra rahat həyat yaşamaq arzusundayam. Gəl, gəzib-dolaşaq bu dünyanı. Cənubi Amerikaya da turist kimi gedək.

Arvadının israrla inadkarlıq göstərməsinə baxmayaraq bütün gecəni Ruslan Dinaranı dilə tutub nəhayət, onu yola gətirdi. Sumoçu qadın həvəssiz halda razılaşmağa məcbur oldu.

Bir neçə gündən sonra onlar qonaqlarla Sankt-Peterburqa, oradan da Boliviyaya uçdular.

Turnirə müxtəlif ölkələrdən idmançılar gəlsə də, Cənubi Amerikadan olan qadınlar sayca üstünlük təşkil edirdi. Reqlament, qaydalar təsdiqləndi. Şərtlər belə müəyyənləşdi ki, əvvəlcə idmançılar arasında qarışıq formatda qaydasız döyüş üzrə çempionat keçiriləcək. Daha sonra birinciliyin qalibləri şou-proqram xarakterli nümunəvi yarışlara qoşulmalı olacaqdı.

Yerli idmançıların bədən quruluşu və geyimi seçilirdi. Əksəriyyəti orta yaşlı olan qadınların hamısı iri bədənli, əzələli idi. İdmançılardan nazik paltarda döyüşə çıxmaq tələb olunurdu. Hindulara xas milli geyimdə olanlara da təsadüf edilirdi. Yarıçılpaq vəziyyətdə döyüşə çıxmağa icazə verilmirdi.

Sakit keçən qarşılaşmalar da oldu, gərgin mübarizələr də. Vaxtından əvvəl qan içində rinqi tərk edənlərə də rast gəlindi.

Belə bir turnirdə ilk dəfə çıxış etməsinə baxmayaraq, bütün görüşləri inamla keçirən Dinara baş mükafatı qazanmağı bacardı. Amma bu dəfə zədələrdən yayına bilmədi. Yerli idmançılar rinqdə özlərini çox aqressiv aparır, rəqibə xəsarət yetirməkdən çəkinmirdilər. Dinara yeganə gəlmə idmançı oldu ki, axıra qədər tab gətirdi. Yalnız mükafatçıların iştirak etdiyi şou xarakterli çıxışlara qatılan Dinara burada da fərqlənərək böyük pul məbləği əldə etdi.

Sankt-Peterburqa qayıtdıqdan sonra qalib sumoçu onunla gələcəkdə də əməkdaşlığı davam etdirmək istəyində olan şirikləşmiş İqora və Rəşidə daha hər hansı bir yarışa qoşulmayacağını bildirdi. Ərinə də incikliyini çatdıraraq, idman karyerasını bitirdiyini elan etdi.

Günlər, aylar ötdü. Ruslan yeni pullarla böyük sağlamlıq kompleksi açdı. Maddi durumu aşıb-daşan Ruslan tədricən həyat tərzini də dəyişdi. Sərxoş vəziyyətdə evə gec gəlməsi adət halını almağa başladı. Başqa yerlərdə yatıb qaldığı gecələrin də sayı artırdı. Dinara hətta onun narkotik vasitələrə qurşandığını da hiss edirdi.

Ruslanın hərəkətlərinə dözə bilməyən Dinara əri ilə sərt danışmaq məcburiyyətində qaldı.

- Mən sənə görə hər şeyə getmişəm. Lənətə gəlmiş sumoya baş qoşandan sonra əzablı, acınacaqlı həyatım başladı. İndiyə qədər üstünü vurmamışam. Barışmalı olmuşam. Bu durmu, mənə verdiyin dəyər?! Məni tamahının qurbanına çevirdin. Təki pul gəlsin. Hətta zallarda mənə söz atanlara, rinqdə plastik pivə qabları tullayanlara, hotel nömrələrinə soxulmağa cəhd edənlərə, sərxoş tamaşaçıların, fanatların digər murdar hərəkətlərinə həmişə göz yummusan. Barlara, striptiz klublara getməkdən yorulmadın? İstədiyin kimi gəzirsən, kef edirsən. Başa düşürəm, daha məni bəyənmirsən. İndi səni modellər maraqlandırır. Özünə geydirdiyin xomutdan azad olmaq istəyirsənsə, mənə açıq de. İstənilən vaxt ayrıla bilərik. Görünür, daha mənə ehtiyacın yoxdur. Mənim həyatım sənsiz də rəngarəng ola bilər. Əlbəttə, qadına həmişə köməkçi lazımdır. Elə mənə də. Amma sənin kimisi yox. Sonuncu dəfə xəbərdarlıq edirəm. Ya özünü normal aparıb kökündən dəyişməlisən, ya da ...

Ruslan Dinaranı itirmək istəmirdi. Bir müddət o, zərərli, xoşagəlməz vərdişlərindən qismən əl çəkib əvvəlki sakit həyatına qayıtmağa çalışdı. Lakin yenə də gizlincə öz əyləncələrindən qalmırdı.

Aradan bir xeyli vaxt keçdi. Ruslan növbəti dəfə Dinaraya yenə də təəccüb doğuran bir xəbər çatdırdı.

- Piterdəki tanışlarımız yeni, olduqca sərfəli proyekt təklif edirlər. Onlar ya Moskvada, ya da burada sənin kişi idmançı ilə döyüş görüntüsü yaradan, faktiki isə şou xarakterli qarşılaşmanı təşkil etmək istəyirlər. Qaydalar çox münasibdir. Sənin rinqə çıxmağın yalnız zahirən yarış təəssüratını göstərəcək. Məbləğ yüksəkdir. Əslinə qalsa, bizim üçün fantastikdir. Şərti qalib altmış faizə yiyələnəcək. Sumo ilə qaydasız döyüş elementləri birlikdə tətbiq oluna bilər. Yəni orijinal bir görüş düşünüblər. Əsas məqsəd isə film çəkməkdir. Dediklərinə görə seçdikləri idmançı əvvəllər güclü döyüşçü olub. Boksda, qaydasız döyüşdə çoxlu titullar əldə edib. Sumodan da anlayışı var. Yəqin ki, üzə çıxanda, tanıyacağıq. Səhhətində problemlər yarandığından yarışlardan uzaqlaşıb. Sponsorları da özləri tapıblar. Bizə yalnız razılıq vermək, bir də təşkilat məsələlərini həll etmək qalır.

- Mən nə onları, nə də səni anlaya bilmirəm. Yenə bu əcaib fikir haradan başınıza girib?! Mən artıq birdəfəlik qərarımı vermişəm. Film çəkmək istəyirlər,qoy aktrisalara müraciət etsinlər. Yaxud, başqa idmançı qadın axtarsınlar. Nə çoxdur arzusunda olan qadınlar. Bircə kişi ilə döyüşməyim qalmışdı.

- Onlar bilet alıblar, sabah Bakıya gəlirlər.

- Təcili məlumat ver ki, əziyyət çəkməsinlər. Alınan iş deyil.

- Söhbət əlverişli proyektdən, böyük puldan gedəndə kiminlə döyüşmə görüntüsü yaratmağının nə fərqi var ki?

- Gör, pul gözünü necə tutub. Sən özün necə rəva görürsən ki, arvadın kişi ilə rinqə çıxsın?

Ruslanın ani olaraq fikrə getdiyini görən Dinara sözlərinə davam etdi.

- Əvvəla, sən bilirsən ki, klassik sumo ənənələrinə görə kişi qadınla yarışa bilməz. Sumoçu kişinin qadınla döyüşməsi hələ qədim zamanlardan böyük şərəfsizlik sayılıb. Bundan başqa, o, necə məşhur idmançıdır ki, qadınla döyüşməyə razılıq verib. Lap görüntü yaratsa da belə. Yəqin, ağlı yerində deyildir.

Dinara Ruslanı tənbeh etməkdə ara vermir, əri isə susurdu. Axır ki, Ruslan dilləndi:

- Eh, Dina, sən keçmişdən danışırsan. İndi dünya dəyişib. Ortadakı puldan xəbərin yoxdur. Gəl, şansımızı qaçırmayaq. Axırıncı dəfə razılaş, yalvarıram.

- Deməli, bayaqdan mənim sözlərim boş-boşuna havaya gedir. Görəsən, sən niyə mənəvi dəyərlərdən uzaq düşdün, Ruslan? Əvvəllər sən belə deyildin. Axı, azərbaycanlılar milli ənənələrə, adətlərə ciddi əməl edirlər. Sənin əsl azərbaycanlı olmağına şübhəm yaranır.

Ruslan daha heç nə demədi. Ərarvadın söhbəti bitdi.

*(ardı var)*





# Dünya-idmanı

## Açılış mərasimlərində hərbi təyyarələrin uçuşu qadağan edildi

Formula 1 üzrə dünya çempionatının bəzi mərhələlərinin açılış mərasimlərində hərbi təyyarələrin nümunəvi uçuşu qadağan olunub. Qran-prilərin təşkilatçıları bununla bağlı Formula 1 rəhbərliyindən məktub alıblar. Qadağaya səbəb Formula 1 proqramı çərçivəsində karbon emissiyalarının 2030-cu ilədək azaldılması istəyidir. Hərbi təyyarələrin uçuşları adətən Monzada, Silverstoun və digər Qran-prilərin açılış mərasimlərində keçirilir. Həmin uçuşlar bu ildən qadağan ediləcək.

Qadağanın digər səbəbi də Formula 1 rəhbərliyinin belə şouların hərbi nümayiş kimi qəbul oluna biləcəyindən və ya ölkələrə hərbi qüdrətlərini nümayiş etdirmək üçün platforma təqdim olunması kimi qələmə verilməsindən ehtiyatlanmasıdır.

Təşkilatçılara köhnə təyyarələr və ya kommersiya təyinatlı laynerlərlə parad keçirməyə icazə verilib. Belə ki, aviaşirkətlərdən ekoloji cəhətdən təmiz yanacaqdan istifadə tələb olunur.

Qeyd edək ki, ötən il Bəhreyn Qran-Prisi başlamazdan əvvəl "Gulf Airlines" şirkəti ikinci nəsil bioyanacaqla təchiz edilmiş "Boeing 787-9 Dreamliner" təyyarəsinin uçuşunu təşkil etmişdi.



## Lebron Ceyms NBA tarixinə düşdü

"Los-Anceles Leykers"in lideri Lebron Ceyms son 14 qarşılaşmanın hər birində 25 xal toplayıb. O, 5 ribaund toplayıb və ən azı bir üç xallıq atışda uğur qazanıb. Bu NBA tarixində bütün oyunçular arasında ən uzun seriya olub.

Basketbolçu bu rekorda "Leykers"in "Utah Jazz" kollektivi ilə qarşılaşmada imza atıb.




## Qətər-2022-nin biletləri satışa çıxarıldı

Bu il Qətərdə keçiriləcək futbol üzrə dünya çempionatının oyunları üçün bilet satışının birinci mərhələsinə start verilib. Azarkeşlər biletləri FIFA-nın rəsmi saytı vasitəsilə sifariş edə bilcəklər. Satışın ilk mərhələsi fevralın 8-dək davam edəcək. Sifariş sayı mövcud yerlərin sayından çox olarsa, biletlər təsadüfi seçimlə paylanacaq.

Əcnəbi azarkeşlər üçün qrup mərhələsinin oyunlarına biletlərin qiyməti 250-800 Qətər rialı (69-220 ABŞ dolları), yerli sakinlər üçün isə 40 rial (11 dollar) təşkil edir.

Final matçının bileti isə yerli futbol azarkeşlərinə 750 riala (206 dollar), əcnəbi azarkeşlərə isə 2200-5850 riala (604-1600 dollar) başa gələcək.

Satışın ikinci mərhələsi dünya çempionatının aprelin 1-də təşkil olunacaq püşkatma mərasiminədək həyata keçiriləcək. Azarkeşlər biletləri canlı növbə prinsipi ilə əldə edəcəklər. Satışın sonrakı mərhələləri püşkatmadan sonra olacaq.

Qətər tarixində ilk dəfə dünya çempionatına ev sahibliyi edəcək. Bundan əlavə, mundial ilk dəfə Yaxın Şərqdə, eləcə də Şimal yarımkürəsində payız və qış aylarında keçiriləcək. Çempionatın final oyunu dekabrın 18-də 80 min tamaşaçı tutumuna malik Lusail şəhərindəki Milli Stadionunda keçiriləcək.

## Hokkeyçi oyun zamanı rəqibini döydü

Amerika Milli Hokkey Liqası (NHL) matçında dava düşüb. "Nyu-York Aylenders" komandasının 44 yaşlı müdafiəçisi Zdeno Hara "Filadelfiya Flayerz"in oyunçusu Zak Makiveni döyüb.

Qeyd edək ki, qarşılaşma "Nyu-York Aylenders"in 4:3 hesablı qələbəsi ilə bitib.

olimpnews.az - sizin saytınız




## Cokoviç "Roland Garros"dan da kənarda qalacaq?

Serbiyalı tennisçi Novak Cokoviç "Australian Open"dən sonra daha bir nüfuzlu turnir olan "Roland Garros"da da iştirak etməyə bilər. Buna səbəb dünyanın bir nömrəli tennisçisinin koronavirus əleyhinə peyvənddən imtina etməsi göstərilir. Belə ki, Fransa hökuməti yarışda iştirak edən idmançılardan peyvənd sertifikatı tələb edir.




Qeyd edək ki, "Roland Garros" turniri mayın 16-dan iyunun 5-dək keçiriləcək.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19